# QULİYEV MƏDƏT QƏZƏNFƏR OĞLU



Quliyev Mədət Qəzənfər oğlu 27 sentyabr 1958-ci ildə Gəncə şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. 1965-ci ildə buradakı 1 saylı orta məktəbə getmiş, 1975-ci ildə 8 saylı orta məktəbi bitirmişdir. 1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. 1980-ci ildə ali təhsilini başa vurmuş və elə həmin ildə Sovet Ordusu sıralarına çağırılmışdır. Hərbi xidmətini bir müddət Ermənistanda keçirmiş, sonra isə Gürcüstanda davam etdirmişdir. 1982-ci ildə ordudan tərxis olunaraq Gəncənin "Dinamo" Cəmiyyətində təlimatçı işləmiş, sonra Gəncə şəhər Daxili İşlər İdarəsinin komsomol təşkilatının katibi olmuşdur. Bir ildən sonra Respublika Daxili İşlər Nazirliyində fəaliyyətə başlamışdır. 1994-cü ildə Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində regional şöbənin rəisi vəzifəsinə yüksəlmişdir. 1995-ci ildə onu həmin idarənin reketlə mübarizə şöbəsinin rəisi təyin etmişlər. M.Quliyevin rəhbərliyi altında respublikada fəaliyyət göstərən bir sıra reket qrupları və axtarışda olan qatı cinayətkar dəstələr zərərsizləşdirilmişdir. O, 1993-cü il dekabrın 10-da cinayətkar qrupun zərərsizləşdirilməsi zamanı ağır güllə yarası alsa da, mövqeyindən geri çəkilməyərək cinayətkarların məhv edilməsinə nail olmuşdur. M.Quliyev 1994-cü il oktyabrın 4-də Gəncə hadisələri zamanı rəhbərlik etdiyi şöbənin əməkdaşları ilə birlikdə, dövlət çevrilişinə cəhd göstərən cinayətkar dəstənin zərərsizləşdirilməsində də fəal iştirak etmişdir. Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli fərmanı ilə polis polkovniki Quliyev Mədət Qəzənfər oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. O, 1997-ci ildə Azərbaycan Respublikası DİN-nin Polis Akademiyasını bitirmişdir. M.Quliyev 1996-cı ildə Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi müavini, 2001-ci ildə isə həmin idarənin idarə rəisi vəzifəsində çalışmışdır. 2002-i ildə DİN-nin Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, 2004-cü ildən İnterpolun Azərbaycan üzrə Milli Mərkəzi Bürosunun rəisi təyin edilmişdir. Azərbaycanın Milli Qəhrəmanı, polis general-mayoru Mədət Qəzənfər oğlu Quliyev 2006-cı ilin iyul ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində Baş Mühafizə İdarəsinin rəisi vəzifəsinə təyin olunub. Eyni zamanda Daxili İşlər Nazirliyi Kollegiyasının üzvü seçilib. Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2011-ci il tarixli sərəncamına əsasən ədliyyə nazirinin müavini, Nazirliyin Penitensiar Xidmətinin rəisi vəzifəsinə təyin olunub. Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2012-ci il tarixli sərəncamı ilə Quliyev Mədət Qəzənfər oğluna göstərdiyi xidmətlərinə görə ədliyyə general-leytenantı rütbəsi verilib. Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2014-cü il tarixli 881 nömrəli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 20 oktyabr 2015-ci il tarixli 1458 nömrəli Sərəncamı ilə ədliyyə general-leytenantı Mədət Quliyev Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini təyin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli 1462 nömrəli Sərəncamı ilə Mədət Quliyevə general-leytenant ali hərbi rütbəsi verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2015-ci il tarixli 1622 nömrəli Sərəncamı ilə general-leytenant Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2018-ci ildə general-polkovnik ali hərbi rütbə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri təyin olunub. Ailəlidir. İki övladı var.